


Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

İyul 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLMALIDIR. EYNİ ZAMANDA, BİZİM İXRAC İMKANLARIMIZ DA GENİŞLƏNDİRİLMƏLİDİR"

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2020-ci il 15 iyul tarixində Nazirlər Kabinetinin
2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına
və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən



“Bir daha demək istəyirəm ki, ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzində olmalıdır. Eyni zamanda, bizim ixrac imkanlarımız da genişləndirilməlidir. Biz heç vaxt unutmamalıyıq ki, ölkəmizin əhalisi artır, ölkəmizə gələn xarici qonaqların sayı 2020-ci il istisna olmaq şərti ilə artır. Belə olan halda daxili tələbat da artacaq.

Daxili tələbat nə qədər artacaqsa, əgər kənd təsərrüfatı istehsalı indiki yerində qalarsa, ixrac imkanlarımız bir o qədər azalacaq. Ona görə kənd təsərrüfatının intensiv yollarla inkişafı bizim üçün prioritet məsələ olmalıdır”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-iyun aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 279,7 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-iyun aylarında 319,5 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

"Elektron ticarət: Azərbaycan və Rusiyanın ən yaxşı təcrübəsi" mövzusunda müzakirə keçirilmişdir ____ səh. 19

2020-ci ilin iyul ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,0 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 20

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-iyun ayları** ərzində qeyri-neft sektoru üzrə **911,9 milyon** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **iyun ayında** qeyri-neft sektoru üzrə ixrac **190,4 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin ilk altı ayı ərzində Azərbaycanın ixracı 7,7 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə **911,9 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə **67,6 milyon** ABŞ dolları və ya **6,9 faiz** azalıb.

Bu ilin yanvar-iyun ayları ərzində Rusiyaya **370,3 milyon**, Türkiyəyə **177,2 milyon**, İsveçrəyə **96,1 milyon**, Gürcüstana **76,7 milyo**n və Çinə **28,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-cu ilin ilk 6 ayı ərzində Rusiyaya qeyri-neft ixracı 4,3 faiz, İsveçrəyə 30,7 faiz və Çinə 65,5 faiz artıb.

2020-ci ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (162,3 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 85.7 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (58,6 milyon ABŞ dolları) üçüncü olub.

2020-ci ilin iyun ayında isə qeyri-neft sektoru üzrə ixrac **190,4 milyon** ABŞ dolları təşkil edib. Xüsusilə, 2020-ci ilin iyun ayında yeyinti məhsulları ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə **9,1 milyon** ABŞ dolları və ya **10 faiz** artıb. Bundan əlavə, qeyri-neft sektoru ixracın ümumi ixracda payı ötən ilin müvafiq dövrü ilə müqayisədə **12,9 faiz** artaraq **26,7 faiz** olub.

Bu ilin iyun ayında qeyri neft-qaz sektoru üzrə ən çox mal Rusiyaya (99,3 milyon ABŞ dolları), Türkiyəyə (32,9 milyon ABŞ dolları), İsveçrəyə (24,6 milyon ABŞ dolları), Gürcüstana (6,2 milyon ABŞ dolları) və Ukraynaya (5,1 milyon ABŞ dolları) ixrac edilib.

2020-cu ilin iyun ayında qeyri-neft sektoru üzrə ixracda tomat (pomidor - 39,2 milyon ABŞ dolları) birinci, təzə albalı və gilas (32,2 milyon ABŞ dolları) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 21 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

MADE IN AZERBAIJAN

# 2020-Cİ İLİN **yanvar-iyun aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN **iyun ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2020-Cİ İLİN **yanvar-iyun aylarında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 162,3 | 138,1 |
| Qızıl | 85,7 | 70,4 |
| Pambıq mahlıcı | 58,6 | 74,9 |
| Fındıq ləpəsi | 54,5 | 67,9 |
| Elektrik enerjisi | 41,6 | 51,9 |
| İlkin formalı polipropilen | 39,9 | 36,2 |
| Kartof | 33,8 | 26,8 |
| Albalı və gilas | 32,3 | 29,7 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 24,4 | 41,9 |
| Digər | 378,9 | 441,4 |

# 2020-Cİ İLİN **iyun ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



| Mal | 2020 | 2019 |
|---|---|---|
| Tomat (pomidor) | 39,2 | 33,8 |
| Albalı və gilas | 32,2 | 29,6 |
| Qızıl | 21,0 | 13,5 |
| Kartof | 10,5 | 4,1 |
| Pambıq mahlıcı | 9,9 | 6,8 |
| İlkin formalı polipropilen | 8,0 | 2,7 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 6,6 | 5,8 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 4,8 | 2,8 |
| Metanol (metil spirti) | 4,8 | 7,4 |
| Digər | 53,4 | 85,5 |

## **Yanvar - iyun aylarında** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

### 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | **12,6** |
| Fevral | Elektrik enerji | **19,4** |
| Mart | Fındıq ləpəsi | **13,7** |
| Aprel | Tomat (Pomidor) | **24,2** |
| May | Tomat (Pomidor) | **54,6** |
| İyun | Tomat (Pomidor) | **33,8** |

### 2020

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | **16,3** |
| Fevral | Pambıq mahlıcı | **19,5** |
| Mart | Tomat (pomidor) | **19,2** |
| Aprel | Tomat (Pomidor) | **29,4** |
| May | Tomat (Pomidor) | **49,7** |
| İyun | Tomat (Pomidor) | **39,2** |

# 2

# 2020-Cİ İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2020-ci ilin yanvar-iyun ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2020-ci ilin birinci yarımilliyi üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Land Lojistic" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Fruit Store" MMC, "Global Trade Group" MMC, "Sun Food" MMC, "Aqrovest" MMC, “Azagroeksport 2017” MMC, "Baku Steel Company".

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, “Azərtütün Aqrar Sənaye Kompleksi” MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “Suraxanı Maşınqayırma Zavodu” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2020-Cİ İLİN **yanvar-iyun aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI İYUL




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2020-Cİ İLİN **yanvar-iyun aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI İYUL



## 2020-Cİ İLİN **yanvar-iyun aylarında "Azərkosmos" ASC 21,5 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2020 İXRAC İCMALI İYUL



2020-ci ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **27 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir. 2020-ci ilin iyun ayında isə "Azərkosmos" ASC dünyanın **20 ölkəsinə 2,4 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| Birləşmiş Krallıq | 5,9 mln $ |
| Fransa | 5,0 mln $ |
| ABŞ | 4,6 mln $ |
| Malayziya | 3,9 mln $ |
| BƏƏ | 674 min $ |



## 2020-ci ilin **yanvar-iyun aylarında** xaricilər Azərbaycanda **BANK KARTLARI VASİTƏSİ** ilə **279,7** milyon manatlıq əməliyyat aparmışlar

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməmiş, mart ayından başlayaraq bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-iyun aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 590,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Bu dövrdə ölkəmizə gələnlərin 29,7 faizi Rusiya Federasiyası, 26,7 faizi Gürcüstan, 14,5 faizi Türkiyə, 7,0 faizi İran, hər birindən 2,1 faiz olmaqla Hindistan və Ukrayna, 2,0 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,3 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Pakistan, hər birindən 1,2 faiz olmaqla Küveyt və Qazaxıstan, 1,1 faizi Türkmənistan, 0,9 faizi Böyük Britaniya, hər birindən 0,8 faiz olmaqla Özbəkistan və İraq, 0,7 faizi Belarus, 0,6 faizi İsrail, 5,9 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Cari ilin yanvar-iyun aylarında Çindən gələnlərin sayı 7,6 dəfə, Cənubi Koreyadan - 6,9 dəfə, Macarıstandan - 5,3 dəfə, Yaponiyadan və İsraildən - 5,1 dəfə azalmışdır.

Ümumilikdə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 4,0 dəfə azalaraq 16,7 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 2,8 dəfə azalaraq 79,1 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 2,4 dəfə azalaraq 212,1 min nəfər olmuşdur.

2020-ci ilin iyun ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 23,7 milyon manat təşkil etmişdir. 2020-ci ilin yanvar-iyun ayında isə əcnəbilər bank kartları vasitəsi ilə **279,7 milyon** manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | **99,8** | **88,3** | **85,2** |
| Fevral | **91,1** | **85,3** | **72,9** |
| Mart | **105,8** | **98,0** | **53,9** |
| Aprel | **109,7** | **103,2** | **19,7** |
| May | **107,3** | **100,9** | **24,3** |
| İyun | **106,7** | **115,1** | **23,7** |
| CƏMİ | **520,4** | **590,8** | **279,7** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2020-Cİ İLİN YANVAR-İYUN AYLARINDA 319,5 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **1 milyard 904,3 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin yanvar-iyun aylarında Azexport.az portalına **319,5 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. Ötən ilin birinci yarısı ilə müqayisədə cari ilin ilk altı ayında portala daxil olan ixrac sifarişləri dəyər baxımından **5,4 faiz** artmışdır.

2020-ci ilin iyun ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **45,6 milyon** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq ayı ilə müqayisədə **10,4 faiz** artmışdır.

Cari ilin iyun ayında Azexport.az portalına ən çox ixrac sifarişi fındıq, pambıq və pambıq yağı, pomidor, badımcan, soğan, kartof, kələm, xiyar, yer kökü, çay, tütün, şərab, nar şərabı, kosmetik vasitə, çiyələk, tikinti materialı, toyuq əti, buğda unu, mineral su, uşaq bezi və s. mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 30 iyun tarixinə kimi (42 ay ərzində) Azexport.az portalına dünyanın 141 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 904,3 milyon** ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **Azexport.az** PORTALINA
# DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI İYUN




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il | 2020-ci il |
|---|---|---|---|
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** | **CƏMİ - 319,5** |



Son **42 ay** ərzindəki sifarişlərin cəmi - **1 904,3**

# 2020-Cİ İLİN **iyun ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Fındıq



Pambıq və pambıq yağı



Pomidor



Badımcan



Soğan



Kartof



Kələm



Xiyar



Yer kökü



Çay



Tütün



Şərab



Nar şərabı



Kosmetik vasitə



Çiyələk



4

# “ELEKTRON TİCARƏT: AZƏRBAYCAN VƏ RUSİYANIN ƏN YAXŞI TƏCRÜBƏSİ” MÖVZUSUNDA MÜZAKİRƏ KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalının tərəfdaşlığı ilə ixracatçı sahibkarlara Rusiya bazarında “Elektron ticarət: Azərbaycan və Rusiyanın ən yaxşı təcrübəsi” mövzusunda onlayn müzakirə keçirilmişdir.

Müzakirə zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalının rəhbəri Ayxan Qədəşov portalın fəaliyyəti, funksionallığı barədə sahibkarlara ətraflı məlumat vermişdir. Portalın yerli malların vahid məlumat bazası,rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda “Made in Azerbaijan” brendi adı altında təşviqi təcrübəsi maraqla qarşılanmışdır. Rusiya Federasiyasının Ticarət və Sənaye Palatasının elektron ticarətin inkişafı Şurası ilə Azexport.az portalı arasında tətbiq olunan uğurlu yeni elektron nümunələrin qarşılıqlı hər iki ölkədə tanıdılmasına dair ilkin razılıq əldə olunmuşdur. Əməkdaşlığın davamlı olması üçün bu istiqamət üzrə fəaliyyət göstərən azərbaycan-rus ixracatçılarının iştirakı ilə birgə seminarların keçirilməsi zəruri hesab olunmuşdur.

Qeyd edək ki, onlayn müzakirə Azərbaycanın Rusiya Federasiyasındakı Ticarət Nümayəndəliyinin Biznes Klubunun təşəbbüsü, Azərbaycanın Rusiya Federasiyasındakı ticarət Nümayəndəsinin Aparatının, Azərbaycan Beynəlxalq Bankının təmsilçilərinin, Azərbaycan və Rusiya iş adamlarının iştirakı ilə keçirilmişdir. Azərbaycanın Rusiya Federasiyasındakı ticarət nümayəndəsi Ruslan Əliyev müasir dövrdə elektron ticarətin mal və xidmətlərin həm daxili, həm də xarici bazarlardakı istehlakçılara çatdırılması ilə bağlı artan rolu, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti haqqında iştirakçılara məlumat verilmişdir. Azərbaycan Beynəlxalq Bankının aparıcı mütəxəssisi Nicat Cəfərov isə sahibkarları müvafiq bank məhsulları haqqında məlumatlandırılmışdır.

Tədbir çərçivəsində iki ölkənin iş adamları arasında elektron ticarət sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmiş, ixracatçıları maraqlandıran suallar cavablandırılmışdır.






5

# 2020-Cİ İLİN İYUL AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 17,0 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2020-ci ilin iyul ayı ərzində hüquqi şəxslər tərəfindən 100 dəfə müraciət daxil olunub. Ümumilikdə 110 ədəd sertifikat (68 ədəd mənşə, 24 ədəd baytarlıq, 6 fitosanitar, 12 ədəd Qida təhlükəsizliyi sertifikatı) verilib.

Cari ilin iyul ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **17,0 milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. İyul ayında “Baku Steel Company”, “AzərGold”, “T. Əhmədov adına AZNAR”, “AzərDəri”, “Sun Food”, “Gilan Tekstil Park”, “AztolAlat”, “Emre Dericilik Nakliyat Otomotiv İnşaat Kimya Sanayi”, “ATENA”, “CAMAL”, “Organic Meat”, “TAC”, “Agro Export Azerbaijan”, “Kael Elektrik Elektronik”, “AzFood”, “AzGranata”, “Absheron Saffron”, “Xəzər Trade”, “Fors” şirkətləri müraciət edərək sertifikat əldə etmişlər. Qeyd olunan hüquqi şəxslər tərəfindən nar, alma, albalı şirələri, narşərab, pambıq iplik tullantısı, qara, yaşıl çay, doğranmış qənd, cips, “Şahdağ” markalı heyva, feyxoa qazlı içkiləri, pendir, qiymətli metallar, dondurma məhsulları, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, pikellənmiş və xromlanmış qoyun dərisi, dondurulmuş inək əti, qurudulmuş inək qamışı, biyan kökü, qırmızı, ağ, kəmşirin şərab, zəfəran mürəbbələri, gəmi yanacağı, dərinin sənayedə kəsilmə nəticəsində yığılan faydasız tullantıları, polad armatur yayması, polad boru, polad kvadrat pəstahın ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən şirkətlər arasında “AzərGold”, “Baku Steel Company”, “T. Əhmədov adına AZNAR”, “ATENA”, məhsullar arasında isə qiymətli metallar, polad armatur yayması, polad boru, meyvə şirələri, pendir ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 20 ölkəyə- İsveçrə (67%), Rusiya (14%), Gürcüstan (5%), Türkiyə (12%), digər ölkələrə (2%)- (ABŞ, Birləşmiş Krallıq, Almaniya, Estoniya, Hindistan, Myanma, Dubay, İtaliya, Vyetnam, Fil Dişi Sahili, Malayziya, Ukrayna, Özbəkistan, Tailand, Çin, Honkonq) ixrac edilmişdir.

Bu ilin iyul ayında AQTA-dan 1 subyekt qeydiyyatdan keçmişdir. Cari ilin iyul ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə 283.3 min ABŞ dolları dəyərində idxal fitosanitar icazəsi üçün müraciətlər daxil olmuşdur. Sertifikat alan şirkətlər arasında “Binə Agro”, “Agro Alliance”, şirkətləri var.

# 2020-Cİ İLİN **iyul ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






# CARİ İLİN **İYUL AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

İSVEÇRƏ
**67,0%**

RUSİYA
**14,0%**

TÜRKİYƏ
**12,0%**




GÜRCÜSTAN
**5,0%**

DİGƏR
**2,0%**

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

